# Mədəniyyət komitəsinin iclası keçirilib

Aprelin 14-də Milli Məclisin Mədəniyyət komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Qənirə Paşayeva iclası açaraq gündəlik barədə məlumat verib. Bildirib ki, gündəliyə bir məsələ - İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsi daxil edilib.

Qeyd edilib ki, "İctimai Televiziya və Radio Yayımı haqqında" qanuna uyğun olaraq İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Mətbuat Şurası tərəfindən irəli sürülmüş şəxslərin 6 illik səlahiyyət müddəti 2023-ci ilin aprelində başa çatır. Ona görə də qanunvericiliyə əsasən, yeni namizədlərin irəli sürülməsi ilə bağlı müvafiq təşkilati tədbirlər görülüb və Milli Televiziya və Radio Şurası adıçəkilən qurumların hərəsindən iki nəfər olmaqla yeni namizədləri Milli Məclisə təqdim edib.

Komitə sədri televiziyaların, o cümlədən İctimai Televiziyanın fəaliyyətinin dövlətimiz və cəmiyyətimiz üçün önəmini vurğulayıb, onların səmərəli və məhsuldar fəaliyyəti ilə bağlı fikirlərini səsləndirib. O, cəmiyyətin maarifləndirilməsində, bədii zövqün formalaşdırılmasında, informasiya xidmətinin göstərilməsində, həmçinin azərbaycançılıq ideologiyasının təbliği və Azərbaycan dilinin qorunması istiqamətində televiziyaların üzərinə düşən məsuliyyəti xüsusi vurğulayıb.

Sonra komitə üzvləri Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Əziz Ələkbərov, Aqil Abbas, Razi Nurullayev, Novruzəli Aslanov, Ülviyyə Ağayeva və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev müzakirə olunan məsələ ilə bağlı çıxış ediblər. Onlar ölkəmizdə televiziya məkanındakı mövcud durumdan söz açaraq, televiziya proqramlarının, verilişlərin, xəbərlərin keyfiyyətinin, peşəkarlığının yüksəldilməsi ilə bağlı fikirlərini səsləndiriblər.

Müzakirələrin yekununda İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsi parlamentin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.-15 aprel.- S.3.